# Tənzimat dövrü türk ədəbiyyat yazıçısı Namıq Kamalın romanlarında hikmətli sözlər



Xəyalə Vəliyeva

***Türk ədəbiyyatının yeniləşmə dönəmində şeirə ilk dəfə 'Vətən', 'millət', 'xalq', 'haqq', 'hürriyyət', 'istiqlal', 'bərabərlik" məfhumlarını gətirən alovlu vətənpərvər, yaratdığı əsərlərlə nəinki türk xalqı, eləcə də bütün türkdilli xalqlar tərəfindən sevilən Namiq Kamal türk dilinin tarixində də böyük rol oynamışdır. Namiq Kamalın ədəbi və inqilabi fəaliyyətinə böyük dəyər verən Mustafa Kamal Atatürk Vətənin azadlığı və istiqlalı uğrunda ölməyi bugünkü nəslə Namiq Kamalın öyrətdiyini deyirdi.***



Namiq Kamalın yaşadığı dövr (1840-1888) Osmanlı imperatorluğunun süqutuna təsadüf etmişdir və buna görə bu dövrdəki ədəbi mühitin dözülməzliyi, hərb meydanlarındakı fəlakətli və ağır itkilər vətən sevgisi ilə alışıb yanan və bütün bunlardan qurtuluş əlacı axtaran Namiq Kamal kimi ziyalının yaradıcılığına, sözsüz ki, təsir etməyə bilməzdi. Buna görədir ki, onun ədəbi fəaliyyəti ölkəsindəki sosial məsələlərlə hər zaman həmahənglik təşkil etmişdir.

Tənzimat ədəbiyyatı XIX əsr Osmanlı dövlətinin ən çətin dövrü kimi xarakterizə edilir. Türklərə qarşı rus, fransız, ingilis birliyi bütün Osmanlı dövlətini dağıtmaq planları qururdu. Bu birlik Avropada üsyan etmək üçün fürsət gözləyən xalqlara dəstək verir, üsyanlar quraraq onların əhatəsini genişləndirirdi. 1839-cu ildəTürkiyədə Tənzimat islahatı və 1856-cı ildə İslahat Fərmanı elan edilməsilə Türkiyənin böhranlı günləri başlanır. Daxili və xarici qüvvələrlə üz-üzə duran Osmanlı İmperiyası XIX əsrdə tənəzzülə uğrayır. Hər sahədə olduğu kimi, bu tənəzzül türkdili vəədəbiyyatından da yan keçmədi. Əski türk ədəbiyyatı ilə yeni türk ədəbiyyatının mübarizəsi özünü türk dilində də büruzə verdi.

Başqa tənzimatçılar kimi, N.Kamal da mütləqiyyət rejiminə qarşı açıq-aşkar öz etirazını bildirirdi. Nəslindən olan görkəmli adamların da zülmə məruz qalmaları N.Kamalın sultan istibdadına qarşı üsyançı ruhda böyüməsinə təkan vermişdi. Bu gizli üsyankarlıq özünü sonralar daha açıq və geniş formada büruzə verdi. "Yeni Osmanlılar Cəmiyyəti"nin fəal üzvünə çevrilən N.Kamal hökumətin siyasi xəttinə uyğun gəlməyən qəzet məqalələri ilə çıxışlarına görə təqib edilərək Vətəndən uzaqlara sürgün edilir. Yalnız 1876-cı ildə V Sultan Murad hakimiyyətə gəldikdən sonra tale N.Kamalın üzünə gülür. Gənc osmanlılara rəğbəti olan V Sultan Murad N.Kamalı bir şair kimi təqdir etdiyindən idi ki, bir qədər sonra o,V Sultan Muradın əmri ilə Türkiyənin bir sıra adalarında vilayət rəisi vəzifələrində işləməyə başlamışdı. Rəsmi dairələrdə işləməsi onu yaradıcılığından ayıra bilmədi. Belə ki, həm klassik, həm də dövrünün müasir üslubunda yazıb-yaradan və ədəbiyyatın bütün janrlarına müraciət edən Namiq Kamalın yaradıcılığı çox zəngindir. Onun klassik üslubda yazdığı əsərlər müasir üslubda yaratdığı əsərlərdən həm kəmiyyətcə, həm də keyfiyyətcə daha üstündür – desək, yanılmarıq.

Əruz vəzni ilə bərabər heca vəznində də gözəl şeir nümunələri yaradan edib, həm də bir sıra gözəl pyes və romanlar, tənqidi əsərlər, tarixi məqalələr, eləcə də tərcümələrin müəllifidir. Namiq Kamalın mənzum şeirlərini üç hissəyə ayırmaq olar: aşiqanə, hakimanə və vətənpərvərlik mövzusunda yazdığı əsərlər. Bunlara onun Şinasi ilə tanış olduğu zamana aid yazdığı mənzumələri, divan qəzəllərini, bir sıra qəsidələrini, eləcə də gəncliyində Füzuliyə, Nailiyə, L.Qalibə yazdığı nəzirələrini də daxil etmək olar. Köhnə ədəbiyata qarşı amansız və barışmaz düşmən mövqeyində duran N.Kamal "Divan"ındakı şeirlərində türk dilinə xas olan keyfiyyətləri qorumağa səy göstərmiş və köhnə ünsürlərdən (-imalə, -zihaf kimi) qaçmağa çalışmışdır. N.Kamal hər zaman yazılı ədəbiyyatın təməli və əsas qaynağı olan folklordan bacarıqla yararlanmış, Şinasi ilə başlayan Tənzimat ədəbiyyatında "dilin sadəliyi prinsipi"ni qəbul edərək Divan ədəbiyyatına xas olan mürəkkəb məcazlar sistemindən, ərəb-fars tərkibli izafətlərdən və anlaşılmaz ifadələrdən mümkün qədər uzaqlaşmağı bacarmasa da, klassik şeir estetikasının təsirindən tam uzaqlaşa bilməsə də, xalq danışıq dilinin yazılı ədəbi dilə gətirilməsinə, şifahi dil ilə yazı dili arasında movcud olan kəskin fərqi aradan götürməyə cəhd göstərərək türk şeirinə müəyyən mənada xəlqilik gətirmişdir; əsərlərində xalq, millət adından çıxış edərək "Vətən" məfhumu ətrafında ümumxalq coşqusu yaratmağa nail olmuşdur.

***N.Kamalın şeirlərinin külliyyat halında tam olaraq bir araya gətirilməməsi çox böyük təəssüf hissi doğurur. Onun 'Divan'ı da uzun müddət əlyazması şəklində qalmış, yalnız müəyyən zaman keçdikdən sonra kitab halında nəşr olunmuşdur. Ədibin şeirləri ilk dəfə R.Nur, iki dəfə də S.N.Ergün tərəfindən nəşr olunmuşdur.N.Kamalın əsərləri hələ əsrimizin əvvəllərində təkcə doğma Vətənində deyil, Yaxın və Orta Şərqin bir sıra ölkələrində də geniş yayılmışdı. Onun padşah zülmü və haqsızlıq əleyhinə yazdığı şeirləri, eləcə də dram əsərləri əsarətdə inləyən Azərbaycan xalqının da ürəyinə yol tapır, onu azadlıq uğrunda mübarizəyə ruhlandırırdı. Namiq Kamalın 'Vətən yaxud Silistrə', "Akif bəy', 'Zavallı çocuq" və s. pyesləri o zaman Azərbaycan teatr səhnəsində dəfələrlə oynanılmış, hətta Cənubi Azərbaycanda da maraqla qarşılanmışdı.***

H.Cavid, Ö.F.Nemanzadə, M.Hadi, Ə.Hüseynzadə vəAzərbaycanın digər maarifpərvər ziyalıları da N.Kamalın ədəbi fəaliyyətindən təsirlənərək onun əsərlərinə yeri gəldikcə müraciət etmiş və onlardan faydalanmışlar. 1905-ci ildə Azərbaycanda nəşr olunan "İrşad", "İqbal", "Füyuzat", "Həyat"və s. mətbuat orqanlarının səhifələrində tez-tez N.Kamalın əsərləri və onun haqqında materiallar dərc olunurdu.

M.Ə.Sabir də N.Kamal əsərlərinə heyran olan şairlərimizdən idi. Sabirin onun "Amalımız, əfkarımız iqbali-vətəndir" misrası ilə başlayan şeirinə nəzirə yazması bu heyranlığın ifadəsidir.

N.Kamalın yaradıcılığına böyük məhəbbətlə yanaşan H.Zərdabi "Həyat" qəzetinin səhifələrində onun yaradıcılığı haqqında silsilə məqalələrlə çıxış edirdi. Satira jurnalı olmasına rəğmən "Molla Nəsrəddin" də N.Kamalın inqilaba, azadlığa və mübarizəyə çağıran şeirlərini dəfələrlə dərc etmişdir.

Namiq Kamalın şeirlərinin dili geniş tədqiqat üçün tükənməz bir xəzinədir. Məhz buna görə də onun hərtərəfli fəaliyyəti – fəlsəfi və siyasi-ictimai mübarizəsi, estetik görüşləri, bədii əsərləri ideya və obraz baxımından geniş surətdə öyrənilməyə başlanılmış, böyük sənətkarın yaradıcılıq xüsusiyyətlərini araşdıran bir sıra sanballı əsərlər yaranmışdır.



N.Kamaldan sonra türk ədəbi dilinin saflaşdırılmasına dair bir sıra işlər görülsə də, onun xalq, millət və dil uğrundakı xidmətləri misilsizdir. N.Kamal türk dilinin bütün incəliklərinə, onun zəngin və rəngarəng ifadə vasitələrinə hərtrəfli bələd olan bir sənətkar idi. O, klassik ifadə vasitələrindən bacarıqla istifadə etməklə yanaşı, adi danışıq tərzinə aid söz və ifadələri, müxtəlif söz birləşmələrini yazılı ədəbi dilə gətirmiş, onların dildə möhkəmlənib sabitləşməsi üçün əlindən gələni etməyə çalışmışdır. Namiq Kamalın şeirlərində leksik kateqoriyanın türk dillərinin qədim dövrlərinə aid xüsusiyyətlər, eləcə də türk ümumxalq danışıq dilinə məxsus cəhətlər mövcuddur ki, bunların tədqiqi yalnız türk dilinin tarixi üçün deyil, ümumiyyətlə, türk dillərinin müqayisəli-tarixi leksikasının yazılması üçün də əhəmiyyətli olub, bu haqda geniş material verir. N.Kamalın şeir və nəsr dilində qədim türk dilli ("Orxon-Yenisey" kitabələri, "Divanülüğat-it-türk" və s.) abidələrdəki sözlərin mənaları ilə səsləşən sözlərin olmasına təsadüf edilir.

N.Kamal şeirlərinin dili üzərində böyük həssaslıqla işləyən sənətkarlardandır. Ədəbi-bədii əsərlərində hadisələrin xarakterinə uyğun gələn, onları tamamlayan söz və ifadələrdən sərrast şəkildə istifadə etməsi ilə o, həm də türk ədəbi dilinin təkmilləşdirilməsinə dair böyük işlər görmüşdür.

N.Kamalın əsərləri özünəməxsus ifadə tərzi və bədii təsvir vasitələrinin orijinallığına görə də diqqəti cəlb edir. Onun ümumi yaradıcılığı üçün xas olan bədiiləşdirmə məharəti şeirlərində yeni keyfiyyətlərlə zənginləşərək yüksək mərhələyə çatdırılmışdır ki, bu da şairin şeirlərinin yazı tərzi üslubunun ən mühüm istiqamətlərini müəyyənləşdirməyə imkan verir.

Frazeoloji ifadələr sırasına həm də atalar sözləri, zərbi-məsəllər, yazıçının özünün yaratdığı məsəlvari ifadələr, aforizmlər, həmçinin bəzi rəvayət, ədəbi sitatlar və s. daxildir.

Xalq hikmətinin daşıyıcısı olan atalar sözləri və zərbi-məsəllər yığcam, obrazlı, dərin mənalı, tutarlı nitqin timsalıdır. Ayrı-ayrı şəxsiyyətlərin yaratdığı ifadə vasitələri xalq tərəfindən bəyənilməzsə, xalq dilində özünə yer tapa bilməz. Sənətkarın böyüklüyü onun dilə nə dərəcədə bələd olması, xalq dilindəki bədiilik vasitələrindən ustalıqla istifadə etmə bacarığı ilə ölçülür. Əsil sənət nümunələri yalnız xəlqi zəmində yarana bildiyindən dilçiliyin tədqiqat obyekti olmadan da sevilir:

**"Yaktın et ateş-zen-i aram yanmış gönlümü,**

**«Nev-heves kıldın şu kendinden usanmış gönlümü»**

«Ey sabır ve karar yakıcı sevgili, zaten yanık olan gönlümü bir defa da sen yaktın. Kendi hayatından bile usanmış olan gönlümü birtakım yeni yeni arzularla doldurdun...»(İntibah,11).

***Nümunələrdən də bəllidir ki, N.Kamalın şeirlərində olduğu kimi, romanlarında da hikmətli sözlərə geniş yer verilmişdir. Onun millət, hürriyət, vətən, azadlıq motivləri yaradıcılığının əsas mövzusunu təşkil edir; xalqına aşıladığı fikirləri hikmətamiz şəkildə öz ifadəsini yapmışdır:..***

**(ardı gələn sayımızda)**